

Azərbaycan Respublikasının
İnsan Hüquqları üzrə Müvəkkili
(Ombudsman)



# BMT-NİN BİZNES VƏ İNSAN HÜQUQLARI ÜZRƏ RƏHBƏR PRİNSİPLƏRİNƏ ÜMUMİ BAXIŞ

# BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ BİZNES VƏ İNSAN HÜQUQLARI ÜZRƏ RƏHBƏR PRİNSİPLƏRİNƏ ÜMUMİ BAXIŞ

Birləşmiş Millətlər Təşkilatının (bundan sonra - BMT) Biznes və İnsan Hüquqları üzrə Rəhbər Prinsiplərinə ümumi baxış adlı hazırkı çap materialı Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyevanın təşəbbüsü ilə Ombudsman Aparatı tərəfindən hazırlanmış və BMT-nin İnkişaf Proqramının dəstəyi ilə çap edilmişdir.

Material BMT-nin Insan Hüquqları Şurasının 17/4 saylı, 16 iyun 2011-ci il tarixli Qətnaməsi ilə qəbul edilmiş "Biznes və İnsan Hüquqları üzrə Rəhbər Prinsipləri"nin (bundan sonra – Rəhbər Prinsiplər) və 2016-cı il tarixli "Biznes və İnsan Hüquqlarına dair Milli Fəaliyyət Planları üzrə Təlimat"ının, eləcə də İnsan Hüquqlarının Təşviqi və Müdafiəsi üzrə Milli İnstitutların Beynəlxalq Koordinasiya Komitəsi (ICC) 2010-cu il 10 oktyabr tarixli "Edinburq Bəyannaməsi"nin müddəalarına uyğun olaraq hazırlanmışdır.

Çap materialının hazırlanmasında əsas məqsəd dövlət qurumları və şirkətlərinin, eləcə də özəl şirkətlərin, vətəndaş cəmiyyəti institutlarının, o cümlədən digər hədəf qruplarının, ümumilikdə cəmiyyətin Rəhbər Prinsiplər və onların milli səviyyədə implementasiyası, qarşıda duran prioritet məsələlər, habelə bu sahədə Ombudsmanın fəaliyyəti və rolu barədə məlumatlılıq səviyyəsinin artırılmasından ibarətdir.

# BİZNESS VƏ İNSAN HÜQUQLARI

## Biznes və insan hüquqları nədir?

Biznes və insan hüquqları biznes fəaliyyətinin həyata keçirilməsi zamanı bu fəaliyyətin insan hüquqlarına təsiri ilə bağlı məsələləri nəzərdə tutur.

Konsepsiyaya əsasən dövlətlər insan hüquqlarına dair beynəlxalq normaların tələblərindən irəli gələrək, öz əraziləri və (və ya) yurisdiksiyaları daxilində üçüncü şəxslər, o cümlədən şirkətlər tərəfindən yol verilə biləcək insan hüquq pozuntuları hallarından müdafiəni təmin etməlidirlər.

Bununla yanaşı bütün şirkətlərdən insan hüquqlarına riayət etmələri gözlənilir, yəni onlar insan hüquqlarının pozulması hallarından çəkinməli, səbəb olduqları və ya iştirak etdikləri insan hüquqlarına mənfi təsirləri aradan qaldırmalıdırlar.

## Biznes və İnsan Hüquqları üzrə Rəhbər Prinsiplər

"Biznes və İnsan Hüquqları üzrə Rəhbər Prinsiplər" (bundan sonra – Rəhbər Prinsiplər) BMT-nin İnsan Hüquqları Şurasının 16 iyun 2011-ci il tarixli, 17/4 saylı qətnaməsi ilə yekdilliklə təsdiq edilmiş, biznes fəaliyyəti kontekstində insan hüquqlarına mənfi təsir risklərinin qarşısının alınması və aradan qaldırılmasına dair prinsipləri müəyyən edən qlobal standartdır.

## Rəhbər Prinsiplərin mahiyyəti

Rəhbər Prinsiplərə əsasən dövlətlər və şirkətlərin insan hüquqlarına dair fərqli, lakin bir-birini tamamlayan öhdəlikləri mövcuddur. Bu sənəd dövlətlər və şirkətlərin insan hüquqlarına hörmət və riayət edilməsi üzrə vəzifələrini və məsuliyyətini, eləcə də pozuntu hallarında hüquq müdafiə vasitələrinə çatımla bağlı prinsipləri müəyyən edir.

## Rəhbər Prinsiplərin əsas xüsusiyyəti

İnsan hüquq və azadlıqlarına dair beynəlxalq hüquq normalarına əsaslanan Rəhbər Prinsiplər yeni beynəlxalq hüquqi öhdəliklərin əsasını qoymasa da, mövcud şəraitdən irəli gələrək dövlətlər və şirkətlər tərəfindən qeyd olunan sahədə müvafiq siyasət və qaydaların işlənib hazırlanması məqsədi ilə müvafiq parametrlər müəyyən edir.

## Rəhbər Prinsiplərin əhatə dairəsi

Rəhbər Prinsiplər ölçüsündən, əhatə dairəsindən, məkanından, strukturundan və mülkiyyət formasından asılı olmayaraq bütün şirkətlərə və dövlətlərə şamil edilir.

# RƏHBƏR PRİNSİPLƏRİN KOMPONENTLƏRİ

Rəhbər Prinsiplər 3 komponent üzrə ümumilikdə 31 prinsipi müəyyən edir. Hər bir komponent biznes fəaliyyəti ilə bağlı insan hüquqlarının təmin olunması üzrə praktiki addımları nəzərdə tutur.

1 KOMPONENT

### İnsan hüquqlarının müdafiəsi üzrə dövlətin vəzifəsi (1-10-cu prinsiplər)

Bu qrup prinsiplər effektiv siyasət yürütmək və müvafiq normativ hüquqi aktlar qəbul etmək yolu ilə biznes fəaliyyəti kontekstində insan hüquqlarının qoruması üzrə dövlətlərin vəzifələrini müəyyən edir. Buna əsasən dövlətlər insan hüquqlarına mənfi təsirlərin qarşısının alınması, araşdırılması, cəzalandırılması və neqativ nəticələrin aradan qaldırılması üçün müvafiq addımlar atmalıdır.

2 KOMPONENT

### İnsan hüquqlarına riayət olunmasına dair korporativ məsuliyyət (11-24-cü prinsiplər)

Bu qrup prinsiplər şirkətlər tərəfindən insan hüquqlarına  mənfi təsirləri necə müəyyən etmələri və onların həlli üçün adekvat siyasət və prosedurlara malik ola bilmələrini müəyyən edilir. Belə ki, şirkətlər bu prinsiplərdən irəli gələn vəzifələrin yerinə yetirilməsi üzrə siyasət yürütməli, insan hüquqlarının pozulması hallarının müəyyən edilməsi, qarşısının alınması və neqativ təsirlərin yumşaldılması üçün davamlı iş aparmalı, səbəb olduqları neqativ nəticələrin aradan qaldırılması üzrə mexanizmləri tətbiq etməlidirlər.

3 KOMPONENT

### Hüquq-müdafiə vasitələrinə çıxış (25-31-ci prinsiplər)

Bu komponent biznes fəaliyyəti kontekstində insan hüquqlarının pozulması hallarında zərərçəkmiş şəxslərin qanuni, əlçatan, adekvat, ədalətli, şəffaf və effektiv müdafiə vasitələrinə çıxışın olmasını nəzərdə tutur. Bu komponent məhkəmələr, dövlət əsaslı, habelə şirkətlər tərəfindən həyata keçirilən qeyri-dövlət əsaslı məhkəmədənkənar mexanizmlər üçün şikayətlərə baxılmasının effektivlik kriteriyalarını da müəyyən edir. Burada həmçinin, mübahisələrin həllinin maraqlı tərəflər arasında qarşılıqlı dialoqa əsaslanmalı olduğu qeyd olunur.

# RƏHBƏR PRİNSİPLƏRİN MİLLİ SƏVİYYƏDƏ İMPLEMENTASİYASI

BMT Rəhbər Prinsiplərin milli səviyyədə implementasiyası istiqamətində zəruri işlər aparır. Dövlətlər tərəfindən bu sahədə milli fəaliyyət planının (bundan sonra - MFP) hazırlanması məqsədi ilə BMT 2016-cı ildə "Biznes və İnsan Hüquqlarına dair Milli Fəaliyyət Planı üzrə Təlimat" hazırlayıb.

Təlimatda 15 addımdan ibarət 5 mərhələli proses müəyyən edilir. Bu mərhələlər MFP-nin hazırlanması, icrası, monitorinqi və yenilənməsi üzrə addımları əks etdirir.



# RƏHBƏR PRİNSİPLƏRİN İMPLEMENTASİYASININ ƏHƏMİYYƏTİ

## DÖVLƏTLƏR ÜÇÜN

- ✓ Biznes fəaliyyəti zamanı insan hüquq pozuntularının qarşısının alınması və bu cür pozuntu hallarının neqativ nəticələrinin yumşaldılması üzrə səylərin birləşdirilməsi;
- ✓ Biznes və insan hüquqları sahəsində nəzarət və monitorinq mexanizmlərinin gücləndirilməsi;
- ✓ İnsan hüquqlarının müdafiəsinin təşviqi və təmini məqsədi ilə norma və qaydalar barədə məlumatlılığın artırılması;
- ✓ Bütün sektorlarla əlaqələrin gücləndirilməsi və inteqrasiya olunmuş əməkdaşlıq şəbəkələrinin yaradılması;
- ✓ İnvestorlar və ticarət tərəfdaşları arasında etimadın artırılması, bununla da iqtisadiyyatın stimullaşdırılması;
- ✓ İnsan hüquqlarına riayət edən şirkətlərin həvəsləndirilməsi ilə onların dövlətin sosial-iqtisadi inkişafında rolunun artırılması;
- ✓ Şəffaflığın təmin olunması və korrupsiyaya qarşı mübarizə sahəsində fəaliyyətin daha effektiv təşkili;
- ✓ Nümunəvi təcrübə əsasında dövlətin beynəlxalq səviyyədə nüfuzunun artırılması.

## ŞİRKƏTLƏR ÜÇÜN



- ✓ Şirkətin nüfuzunun və dəyərlərinin qorunması və təşviq edilməsi;
- ✓ Mövcud və potensial müştəri bazasının qorunub saxlanılması və genişləndirilməsi;
- ✓ Şirkətlə ictimaiyyət arasında etibarlı və yüksək etimada əsaslanan münasibətlərin qurulması;
- ✓ Şikayət və iddialar üzrə risklərin azaldılması;
- ✓ Yerli və beynəlxalq investorların cəlb edilməsi;
- ✓ Şirkətlərin fəaliyyətinə təsir edə biləcək daxili və xarici risklərin proqnozlaşdırılması və neqativ təsirlərin azaldılması;
- ✓ İnsan hüquqlarına hörmət və insan hüquqlarının müdafiəsi üzrə vəzifələrin icrası ilə əlaqədar qanunvericiliklə müəyyən olunmuş güzəşt və imtiyazlardan istifadə edilməsi;
- ✓ Şirkətin etika və dəyərlərinin təbliğ edilməsi.

# RƏHBƏR PRİNSİPLƏRİN İMPLEMENTASİYASININ ƏHƏMİYYƏTİ

## DİGƏR FAYDALAR

- ✓ Biznes və insan hüquqları sahəsində məlumatlılıq səviyyəsinin artırılması;
- ✓ Cəmiyyətdə insan hüquqlarının müdafiəsinə daha müfəssəl və inklyuziv yanaşmanın formalaşması;
- ✓ Normativ hüquqi bazanın təkmilləşdirilməsi;
- ✓ Hüquq pozuntusuna məruz qalmış şəxslərin hüquqlarının müdafiəsinin və neqativ təsirlərin nəticələrinin aradan qaldırılmasının daha effektiv və çevik şəkildə təşkili.



## Milli İnsan Hüquqları Təsisatlarının (Ombudsmanların) Biznes və İnsan Hüquqları sahəsində fəaliyyətlərinin əsasları

BMT-nin İnsan Hüquqlarının Təşviqi və Müdafiəsi üzrə Milli İnstitutların Beynəlxalq Koordinasiya Komitəsi (ICC) tərəfindən 10 oktyabr 2010-cu il tarixdə Milli İnsan Hüquqları Təsisatlarının (Ombudsmanların) biznes və insan hüquqları sahəsində rolunu və fəaliyyət istiqamətlərini təsbit edən "Edinburq Bəyannaməsi" qəbul edilib.

Bu sənəd ombudsmanların biznes və insan hüquqlarını öz strategiyalarına və fəaliyyətlərinə inteqrasiyasını, bu qurumların maarifləndirmə, tədqiqat, monitorinq, şikayətlərə baxılması və barışdırıcı funksiyalarını müəyyən etməklə mandatlarının İnsan Hüquqlarının Təşviqi və Müdafiəsi üzrə Milli İnstitutların statusu və fəaliyyəti ilə bağlı 1991-ci il BMT Prinsipləri (Paris Prinsipləri) çərçivəsində gücləndirilməsini nəzərdə tutur.

## Azərbaycan Ombudsmanının Rəhbər Prinsiplərin implementasiyası üzrə fəaliyyətinin əsas istiqamətləri

- Ombudsmana ünvanlanmış şikayətlərin analitik təhlili, təklif və tövsiyələrin hazırlanması;
- Dövlət qurumları, ictimai təşkilatlar və biznes strukturlarının (müəssisələrin) işinin əlaqələndirilməsi;
- Funksional problemlərin müəyyən olunması və həlli üzrə zəruri tədbirlərin görülməsi;
- Normativ hüquqi bazanın təkmilləşdirilməsi, habelə bu sahədə Ombudsmanın mandatının beynəlxalq hüquq normalarının tələblərinə uyğunlaşdırılması;
- Beynəlxalq təşkilatlarla əməkdaşlıq, bu sahədə xarici ölkələrin təcrübəsinin öyrənilməsi;
- Biznes və insan hüquqları sahəsində milli fəaliyyət planının hazırlanması üzrə tədbirlərin görülməsi;
- Hədəf qrupları üzrə maarifləndirmə işinin aparılması;
- Beynəlxalq təşkilatların dəstəyi ilə maarifləndirici nəşrlərin və metodiki vəsaitlərin hazırlanması və çap edilməsi.


BİZNES VƏ İNSAN HÜQUQLARI ÜZRƏ RƏHBƏR PRİNSİPLƏR
MÜDAFİƏ
DÖVLƏT
İnsan hüquqlarının müdafiəsi üzrə dövlətin vəzifəsi
BİHRP 1-10
RİAYƏT
ŞİRKƏTLƏR
İnsan hüquqlarına riayət olunmasına dair korporativ məsuliyyət
BİHRP 11-24
BƏRPA
DÖVLƏT və ŞİRKƏTLƏR
Hüquq - müdafiə vasitələrinə çıxış
BİHRP 25-31

# İNSAN HÜQUQLARININ MÜDAFİƏSİ ÜZRƏ DÖVLƏTİN VƏZİFƏSİ

## A. BAZA PRİNSPLƏRİ

- Dövlətlər öz ərazi və/və ya yurisdiksiyası hüdudlarında insan hüquqlarını müəssisələr də daxil olmaqla üçüncü şəxslər tərəfindən pozulması hallarından müdafiəsini təmin etməlidirlər.
- Dövlətlər onların ərazisində fəaliyyət göstərən və ya yurisdiksiyası altında olan şirkətlərdən fəaliyyətləri zamanı insan hüquqlarına riayət olunması ilə əlaqədar gözləntilərini dəqiq bəyan etməlidirlər.

## B. FƏALİYYƏT PRİNSİPLƏRİ

### Normativ tənzimləmə və siyasət sahəsində dövlətin ümumi funksiyaları

- Şirkətlər tərəfindən insan hüquqlarına riayət olunmasını nəzərdə tutan qanunvericilik aktlarının qəbul olunmasını təmin etməli, vaxtaşırı onların uyğunluğunu yoxlamalı, mövcud boşluqları aradan qaldırmalı;
- Şirkətlərin yaradılmasını və onların fəaliyyətini nizamlayan korporativ hüquq normalarının müəssisələr tərəfindən insan hüquqlarına riayət olunmasına şərait yaratmasını təmin etməli;
- Şirkətləri fəaliyyətləri zamanı insan hüquqlarına riayət olunması metodlarına dair effektiv təlimatlandırmalı;
- Həvəsləndirmə tədbirlərini həyata keçirməli və tələb olunduğu hallarda müəssisələrdən insan hüquqlarına mənfi təsirlərin necə aradan qaldırılmasına dair zəruri məlumatları tələb etməli.

### Dövlət və şirkətlər arasında əlaqələr

- Dövlətlər mülkiyyətlərində olan və ya onlar tərəfindən idarə olunan, dəstəklənən, dövlət agentliklərinin xidmətlərindən istifadə edən şirkətlər tərəfindən insan hüquqlarının pozulması hallarının qarşısının alınması üzrə əlavə tədbirlər həyata keçirməli, lazım gələrsə bununla əlaqədar zəruri araşdırmanın aparılmasını tələb etməli;
- Şirkətlərlə müqavilələr bağlanılan zamanı və ya onların maraqlarına dair qanunvericilik aktları qəbul edilərkən dövlətlər insan hüquqları sahəsində öz üzərinə götürdükləri beynəlxalq öhdəliklərin icrasına müvafiq nəzarəti həyata keçirməlidirlər;
- Dövlətlər kommersiya müqavilələri bağladıqları şirkətlər tərəfindən insan hüquqlarına riayət olunmasını təşviq etməlidirlər.

### Münaqişələrdən zərər çəkmiş bölgələrdə şirkətlər tərəfindən insan hüquqlarına riayət olunmasının təmin edilməsi

Münaqişə bölgələrində kobud insan hüquq pozuntuları halları ilə bağlı böyük riskin olduğunu nəzərə alaraq dövlətlər qeyd olunan bölgələrdə fəaliyyət göstərən şirkətlər tərəfindən bu cür hüquq pozuntularına yol verilməməsi üçün mümkün zəruri şərait yaratmalıdırlar. Bu məqsədlə onlar:

- İşgüzar fəaliyyət və münasibətlər zamanı insan hüquqları ilə bağlı risklərin müəyyən edilməsi, qarşısının alınması və ya neqativ nəticələrin yumşaldılmasına köməklik etmək məqsədi ilə müəssisələrlə əlaqələri mümkün qədər erkən mərhələlərdən nizamlamalı;
- Gender bərabərliyi və seksual zorakılığa xüsusi diqqət yetirməklə insan hüquq pozuntuları riskini qiymətləndirilməsi və aradan qaldırılması məqsədi ilə müəssisələrə zəruri köməklik göstərməli;
- İnsan hüquqlarının kobud şəkildə pozulmasına səbəb olan və bu pozuntu hallarının aradan qaldırılması məqsədi ilə əməkdaşlıq etməkdən imtina edən müəssisələrə dövlət dəstəyinin və xidmətlərinin göstərilməsi dayandırmalı;
- İnsan hüquqlarının kobud şəkildə pozulmasında müəssisələrin iştirakı riskinin aradan qaldırılması prosesində həyata keçirilən siyasətin, qanunvericilik aktlarının, o cümlədən hüquqtətbiqetmə tədbirlərinin effektivliyini təmin etməlidirlər.

### Davamlılıq siyasətinin təmin olunması

- Dövlətlər biznes təcrübəsini tətbiq edən dövlət idarələrini, agentlikləri və digər dövlət strukturlarını insan hüquqları üzrə öhdəliklər barədə məlumatlanadırmalı, onları zəruri informasiya ilə təmin etməli, treninqlər və digər vasitələrlə dəstəkləməlidirlər.
- Dövlətlər digər ölkələr və ya kommersiya təşkilatları ilə biznes-məqsədlərinin həyata keçirilməsi zamanı insan hüquqları üzrə öhdəliklərin təmin olunmasına nail olmaq məqsədi ilə adekvat daxili siyasi mühiti qoruyub saxlamalıdır.

Dövlətlər biznes məsələləri ilə məşğul olan çoxtərəfli təşkilatların üzvləri kimi:

- Bu cür təşkilatların üzv ölkələrin hüquqların müdafiə olunması öhdəliklərinin yerinə yetirməsinə şərait yaratmalı, habelə insan hüquqlarına riayət etmələrinə mane olmamalıdırlar;
- Həmin təşkilatlar öz mandatları və imkanları çərçivəsində müəssisələr tərəfindən insan hüquqlarına riayət olunmasına şərait yaratmalı və lazım olduqda üzv dövlətlərə bu məqsədlə texniki yardım, kadr potensialının artırılması və maarifləndirmə tədbirləri də daxil olmaqla, yardım etməlidirlər;
- Fəaliyyətlərində hazırkı rəhbər prinsiplərə əsaslanmalı, biznes kontekstində insan hüquqlarına dair problemlərin həlli istiqamətində beynəlxalq əməkdaşlığı inkişaf etdirməlidirlər.

# İNSAN HÜQUQLARINA RİAYƏT EDİLMƏSİNƏ DAİR KORPORATİV MƏSULİYYƏT

## A.BAZA PRİNSİPLƏRİ

Şirkətlər insan hüquqlarına riayət etməlidir. Bu, şirkətlərin insan hüquqlarının pozulmasına səbəb ola biləcək hallardan uzaq olmasını və bu cür pozuntulara yol verildiyi halda onların mənfi nəticələrinin aradan qaldırmasını nəzərdə tutur.

Şirkətlərin insan hüquqlarına riayət edilməsi üzrə vəzifələri beynəlxalq səviyyədə tanınmış insan hüquqlarından – xüsusən, İnsan Hüquqları haqqında Bill və Beynəlxalq Əmək Təşkilatının "İş yerlərində hüquqlar və əsas prinsiplərə dair Bəyannaməsi"nin tələblərindən irəli gəlir.

Fəaliyyətləri ilə əlaqədar insan hüquqlarına mənfi təsirlərin qarşısının alınmasına və ya onların minimuma endirilməsinə səy göstərməlidirlər, hətta bu cür təsir onlar tərəfindən birbaşa edilmədikdə belə.

İnsan hüquqlarına riayət olunması üzrə vəzifələr fəaliyyət xüsusiyyətlərindən, ölçüsündən, sektorundan, mülkiyyət formalarından və strukturundan asılı olmayaraq bütün şirkətlərə şamil olunur.

Şirkətlər İnsan hüquqlarına riayət olunması üzrə vəzifələrin icrası məqsədi ilə miqyasları və fəaliyyət xüsusiyyətləri nəzərə alınmaqla öz siyasətlərini və prosedur qaydalarını müəyyən etməlidirlər.

İnsan hüquqlarına riayət olunması məsuliyyətini həyata keçirmək məqsədi ilə siyasət yürütməlidirlər

Baş vermiş pozuntu halının nəticəsini aşkar etmək, qarşısını almaq və yüngülləşdirdmək üçün prosedur qaydalarını təmin etməli, habelə insan hüquqlarına təsiri hansı şəkildə aradan qaldırmalarına dair araşdırma aparmalıdırlar.

Fəaliyyətləri nəticəsində səbəb olduqları neqativ təsirin nəticələrinin aradan qaldırılması və zərərin ödənilməsi üzrə tədbirləri həyata keçirməlidirlər.

## B.FƏALİYYƏT PRİNSİPLƏRİ

### SİYASƏT ÖHDƏLİKLƏRİ

Müəssisələr insan hüquqlarına riayət olunması üzrə öhdəliklərin möhkəmləndirilməsi istiqamətində ilk addım kimi müvafiq fəaliyyət prinsiplərini müəyyən etməli və bununla da üzərinə düşən vəzifələrin icrasını təmin etməlidirlər.

**Bu fəaliyyət prinsipləri:**

- müəssisə rəhbərliyi tərəfindən ən yüksək səviyyədə təsdiq olunur;
- daxili və xarici ekspertizanın nəticələri əsasında hazırlanır;
- işçi heyəti, biznes partnyorları, habelə bilavasitə bu fəaliyyətlə, istehsalat və xidmətlərin göstərilməsi ilə əlaqədar olan digər tərəflərin insan hüquqlarına münasibətdə gözləntilərini müəyyən edir;
- şirkət daxilində bütün işçi heyəti, biznes partnyorları və digər maraqlı tərəflər üçün aşkardır (əlçatandır);
- şirkətlərin bütün operativ fəaliyyət proqramlarında və prosedurlarında əks etdirilir.

### İNSAN HÜQUQLARINA DAİR GƏRƏKLİ ARAŞDIRMA

Şirkətlər insan hüquqlarına gərəkli diqqətlə yanaşmalıdırlar. Bu insan hüquqlarına faktiki və potensial təsirin qiymətləndirilməsini, nəticələrin uçotunu və onun əsasında həyata keçirilmiş tədbirləri, müvafiq dəyişikliklərin diqqətlə izlənilməsini və neqativ təsirin nəticələrinin aradan qaldırılması yolları barədə məlumatların təqdim edilməsini nəzərdə tutur.

İnsan hüquqları ilə bağlı riskin qiymətləndirilməsi məqsədi ilə şirkətlər fəaliyyətləri zamanı (birbaşa sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi və ya işgüzar münasibətlər zamanı) insan hüquqlarına qarşı bütün faktiki və ya potensial neqativ təsirləri aşkar etməli və qiymətləndirməlidirlər.

Şirkətlər insan hüquqlarına neqativ təsirin qarşısının alınması və ya onların minimuma endirilməsi (yumşaldılması) məqsədi ilə qiymətləndirmənin nəticələrinin inteqrasiyasını və lazımi tədbirlərin həyata keçirilməsini təmin etməlidirlər.

İnsan hüquqlarına neqativ təsirin aradan qalxıb-qalxmamasını yoxlamaq üçün şirkətlər həyata keçirilmiş tədbirlərin effektivliyini izləməlidirlər.

Şirkətlər insan hüquqlarına təsirin hansı yollarla aradan qaldırılması barədə hesabat verməlidirlər.

### DƏYMİŞ ZİYANIN ÖDƏNİLMƏSİ

Şirkətlər insan hüquqlarına neqativ təsir göstərdikləri və ya bu cür təsirə səbəb olduqları hallarda qanunvericilik çərçivəsində dəymiş ziyanı ödəməli və ya bu cür zərərin aradan qaldırılması üçün əməkdaşlıq etməlidirlər.

### ŞƏRAİTLƏ BAĞLI MƏSƏLƏLƏR

Harada fəaliyyət göstərmələrindən asılı olmayaraq müvafiq qanunvericiliyin tələblərinə əməl etməli və beynəlxalq hüquq normaları ilə təsbit olunmuş insan hüquqlarına riayət etməlidirlər.

Ziddiyyətli tələblərlə qarşılaşdıqları hallarda beynəlxalq səviyyədə təsbit olunmuş insan hüquqlarına riayət olunması yollarını tapmalıdır.

Harada fəaliyyət göstərmələrindən asılı olmayaraq insan hüquqlarının pozulması və ya bu cür pozuntu hallarına səbəb olma riskinə hüquq normalarına riayət olunması məsələsi kimi məsuliyyətlə yanaşmalıdırlar.

İnsan hüquqlarına faktiki və potensial neqativ təsirin aradan qaldırılması üzrə tədbirlərin prioritetliyinin müəyyən olunması zərurəti yarandıqda, müəssisələr ilk növbədə daha ağır nəticələrin aradan qaldırılmasına cəhd göstərməlidirlər.

# HÜQUQ-MÜDAFİƏ VASİTƏLƏRİNƏ ÇIXIŞ

## A. BAZA PRİNSİPLƏRİ

Dövlətlər şirkətlərin fəaliyyəti ilə bağlı insan hüquq pozuntularından müdafiə öhdəliyi çərçivəsində məhkəmə, inzibati, qanunvericilik və digər müvafiq vasitələrlə (bu cür pozuntular onların ərazi hüdudları və/və ya yurisdiksiyası çərçivəsində baş verdikdə) təsirə məruz qalmış tərəflərin effektiv hüquq müdafiə vasitələrinə çatımını təmin etməlidirlər.

## B. FƏALİYYƏT PRİNSİPLƏRİ

### DÖVLƏT MƏHKƏMƏ MEXANİZMLƏRİ

Şirkətlərin fəaliyyəti ilə bağlı insan hüquq pozuntularının aradan qaldırılması zamanı dövlətlər milli məhkəmə mexanizmlərinin effektivliyinin təmin olunması üçün müvafiq tədbirlər görməli, hüquq müdafiə vasitələrinə çatımı məhdudlaşdıra biləcək hüquqi, praktiki və digər maneələrin aradan qaldırılması yollarını müəyyən etməlidirlər.

### ŞİKAYƏTLƏRƏ BAXILMASININ DÖVLƏT MƏHKƏMƏDƏNKƏNAR MEXANİZMLƏRİ

Şirkətlərin fəaliyyəti ilə bağlı insan hüquq pozuntuları hallarında dövlətlər məhkəmə mexanizmləri ilə yanaşı dövlətin hüquq müdafiə sisteminin bir hissəsi olan şikayətlərə baxılmasının effektiv məhkəmədənkənar mexanizmlərini təmin etməlidirlər.

### ŞİKAYƏTLƏRƏ BAXILMASININ QEYRİ-DÖVLƏT MƏHKƏMƏDƏNKƏNAR MEXANİZMLƏRİ

Dövlətlər şirkətlərin fəaliyyəti nəticəsində dəymiş zərərin ödənilməsi ilə bağlı şikayətlərə baxılmasının effektiv qeyri-dövlət mexanizmlərinin tətbiqi imkanlarını nəzərdən keçirməlidirlər.

Şikayətlərə vaxtında baxılmasının və dəymiş ziyanın birbaşa ödənilməsinin təmin edilməsi məqsədi ilə şirkətlər şikayətlərə operativ səviyyədə baxılması mexanizmini yaratmalı və ya onların işində iştirak etməlidirlər.

İnsan hüquqları standartlarına əsaslanan sənaye, çoxtərəfli və digər birgə təşəbbüslər şikayətlərə baxılmasının effektiv mexanizmlərinin əlçatan olmasını təmin etməlidir.

## QEYDLƏR

ombudsman.az
az_ombudsman
www.ombudsman.az
ombudsman_ azerbaijan
Ombudsman of Azerbaijan
(+99412) 493 74 22, (+99412) 498 23 65

ombudsman@ombudsman.az ; apparat@ombudsman.az

AZ 1000, Bakı, Azərbaycan, Üzeyir Hacıbəyli küç., 80, Ala qapı II